# HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**Azərbaycanlı siyasi xadim Fətəli xan İsgəndər oğlu Xoyski 25 noyabr (7 dekabr) 1875-ci ildə Şəkidə anadan olmuşdur.**

| | |
|---|---|
| **1897** | Moskva Dövlət Universitetinin hüquq fakültəsini 1-ci dərəcəli diplom ilə bitirdi və həmin ilin avqustunda Tiflis məhkəmə palatasının böyük sədrinin əmri ilə Yelizavetpol dairə məhkəməsi yanında məhkəmə vəzifələri üçün kiçik namizəd təyin olundu. |
| **1897-ci il 26 avqust** | Tiflis Məhkəmə Palatasının 56 saylı əmrilə Yelizavetapol dairə Məhkəməsinin yanında kiçik məhkəmə məmuru vəzifəsinə təyin olunur. |
| **1898-ci il 27 fevral** | Ali əmrlə kollej katibi rütbəsi verilir. |
| **1899-cu il 4 sentyabr** | Kutaisi dairə məhkəməsi ümumi iclasının qərarı ilə Fətəli xan Ozurket istintaq sahəsinin müdiri təyin edilir. |
| **1900-cü il 8 mart** | Kutaisi qəza istintaq sahəsinin müdiri vəzifəsində çalışır. |
| **1900-cü il 4 aprel** | 3 aylığa Kutaisi qəza məhkəməsi prokurorunun müavini vəzifəsini icra etmək tapşırılır. |
| **1900-cü il 27 iyun** | Ədliyyə nazirliyinin 27 saylı əmri ilə Zuqdidi barışıq məhkəməsinin köməkçisi vəzifəsinə təyin olunur. |
| **1901-ci il 9 iyun** | Vətəndaş idarələri üzrə 48 saylı ali əmrlə Titulyar müşavir rütbəsi verilir. |
| **1901-ci il 18 sentyabr** | Ədliyyə nazirliyinin 33 saylı əmri ilə Fətəli xan Suxumi barışıq məhkəməsinin köməkçisi vəzifəsinə dəyişdirilir. |
| **1903-cü il 22 aprel** | Ədliyyə nazirliyi özünün 12 saylı əmri ilə F.X.Xoyskini Yekaterinodar şəhəri birinci sahəsinin məhkəmə müstəntiqi vəzifəsinə təyin edir. |
| **1903-cü il 29 sentyabr** | Yekaterinodar dairə məhkəməsi ümumi yığıncağının qərarı ilə Yekaterinodarşəhəri |

| | |
|---|---|
| | üçüncü sahəsinə müdirlik vəzifəsinin icrası tapşırılır. |
| **1904-cü il 11 sentyabr** | Vətəndaş idarələri üzrə 70 saylı ali əmrlə Fətəli xan Titulyar müşaviri rütbəsindən kollej assesoru rütbəsinə keçirilir. |
| **1904-cü il 25 oktyabr – 1907-ci il 20 fevral** | 79 saylı əmrlə Yekaterinodar dairə məhkəməsi prokurorunun müavini vəzifəsinə təyin olunur. |
| **1907** | Gəncə quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilir. |
| **1907-ci il 21 iyul** | Yelizavetpol dairə məhkəməsinin qərarı ilə istefada olan kollej assesoru Fətəli xan Xoyski Tiflis Məhkəmə Palatası Yelizavetpol dairəsinin andlı iclasçıları sırasına qəbul edilir. |
| **1913-cü ilə qədər** | Yelizavetpolda andlı iclasçı kimi işləyir. |
| **1913** | Bakıya köçür. |
| **1913-1917** | Bakı dairə məhkəməsində andlı iclasçı kimi çalışır. |
| **1917-ci il aprel ayı** | Fevral inqilabından sonra 1-ci Qafqaz müsəlmanları qurultayının iştirakçısı idi. |
| **1917-ci il may ayı** | Moskvada keçirilən 1-ci Ümumrusiya müsəlman qurultayında Ümumrusiya müsəlman Şurasının İcraiyyə Komitəsinin üzvü oldu. |
| **1917-ci il 26–31 oktyabr** | Bitərəflə "Müsavat" partiyasının 1-ci qurultayında iştirak etmişdir. |
| **oktyabr 1917 - aprel 1918** | Bakı şəhər Dumasına rəhbərlik etmişdir. |
| **15 noyabr 1917 – 10 fevral 1918** | Zaqafqaziya Komissarlığı nəzdində xalq maarif komissarı təyin edilmişdir. |
| **10 fevral - 26 may 1918** | Zaqafqaziya Seyminin üzvü olmuşdur.<br><br>"Müsavat" və demokratik bitərəf qrupun fraksiyasına daxil olmuşdur. |
| **1918-ci il aprel ayı** | Zaqafqaziya Demokratik Federativ Respublikasının ədliyyə naziri olmuşdur; |

| | |
|---|---|
| **1918-1919** | Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra ilk Nazirlər Şurası sədri seçilmişdir. |
| **1918-ci il 27 may - 7 dekabr** | Müvəqqəti Azərbaycan Milli Şurasının üzvü seçilmişdir. |
| **1918-ci il 27 may** | Milli Şuranın icraiyyə komitəsinin sədri olmuşdur. |
| **1918-ci il 28 may-17 iyun** | Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri təyin edilmişdir. |
| **1918-ci il 30 may** | Nazirlər Şurasının sədri F. X. Xoyski Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi barədə bir sıra xarici işlər nazirlərinə radioqram göndərdi. |
| **1918-ci il 9 noyabr** | Fətəli xan Xoyskininn məruzəsi əsasında Azərbaycan höküməti Azərbaycanın üç rəngli bayrağını təsdiq edir. |
| **7 dekabr 1918 – 27 aprel 1920** | Azərbaycan Parlamentinin üzvü olmuşdur. |
| **26 dekabr 1918 – 14 mart 1919** | Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri seçilmişdir. |
| **1919-cu il 25 fevral** | Fətəli xan Xoyski öz hökümətinin istefası haqqında Parlamentə məktub göndərir və iclasda həmin məktub elan edilir. |
| **25 aprel - 30 may 1919** | Zaqafqaziya respublikalarının nümayəndələri konfransında Azərbaycan nümayəndə heyətinin üzvü idi. |
| **1919-cu il noyabr ayı** | Fətəli xan Xoyski Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini həll etmək üçün çağrılacaq konfransda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin sədri təyin edilir. |
| **22 dekabr 1919 – 1 aprel 1920** | Nəsib bəy Yusifbəylinin təşkil etdiyi hökümət kabinəsində Fətəli xan Xoyski xarici işlər naziri vəzifəsini tutur. |
| **1920-ci il 19 iyun** | Tiflisdə qətlə yetirildi. |